# "Effektiv idarəetmə və makroiqtisadi göstəricilər" işçi qrupunun iclası

## Protokol № 19

*Bakı şəhəri* *01 may, 2026-cı il*

**İclasa sədrlik edirdi:**

**İşçi qrupun rəhbəri:** Azər Ələsgərov – Mərkəzi Bankın Pul siyasəti departamentinin direktoru.

**İştirak edirdilər:**

İşçi qrupu üzvləri:

Nihad Fərəcov – Maliyyə Nazirliyinin Ortamüddətli xərclər çərçivəsinin hazırlanması mərkəzinin Makroiqtisadi təhlil və fiskal riskləri sektorunun aparıcı məsləhətçisi;

Müşviq Bayramov – Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktorunun müavinin müşaviri;

Vüqar Abdullayev – İqtisadiyyat Nazirliyinin Makroiqtisadi proqnozlaşdırma və təhlil şöbəsinin müdir müavini;

Jalə Əhmədova – Maliyyə Nazirliyi yanında Dövlət Borcu və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin baş məsləhətçisi;

Elçin Güləliyev – Mərkəzi Bankın Pul siyasəti departamentinin direktor müavini;

Tamerlan Əliyev - Bazar davranışlarının tənzimlənməsi departamentinin direktoru;

Leyla Talıbova - Bazar davranışlarının tənzimlənməsi departamentinin Maliyyə məlumatlılığı və peşəkar inkişaf şöbəsinin kiçik mütəxəssisi;

Rövşən Camalov – Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, Təbii inhisarlara dövlət nəzarəti şöbəsinin, Təbii inhisar və dövlət inhisarının tənzimlənməsinin təşkili sektorunun müdiri;

Orxan Sadıqov - İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri;

Samir Əliyev - "İqtisadi Təşəbbüslərə Yardım" İctimai Birliyinin İdarə Heyətinin üzvü və departament rəhbəri.

**İşçi qrupun katibi:** Məcidxan Vəliməmmədov – Mərkəzi Bankın Strateji və layihə idarəetməsi departamentinin, Təşkilati Proseslərin İdarəedilməsi şöbəsinin aparıcı mütəxəssisi.

**İştirak etmədilər:**

Nuru Süleymanov – Dövlət Statistika Komitəsinin Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin müdiri;

İlahə Baxışova Tahirli - Mərkəzi Bankın Bazar davranışlarının tənzimlənməsi departamentinin Maliyyə məlumatlılığı və peşəkar inkişaf şöbəsinin rəisi;

Rövşən Cabbarov – Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Ekoloji Ekspertiza Agentliyinin baş hüquqşünası;

Cavid Nuruzadə – İqtisadiyyat Nazirliyinin Tarif-qiymət siyasəti şöbəsinin Təhlil və tənzimləmə sektorunun aparıcı məsləhətçisi;

İnqilab Əhmədov - Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzinin direktoru, iqtisadçı ekspert;

Ramil Abbasov - "Spektr" Sosial-İqtisadi Araşdırmalar və İnkişaf İctimai Birliyinin İdarə Heyətinin sədri;

Fərid Baxşıyev - "Ekvita" şirkətinin partnyoru.

## İclasın gündəliyi

İclasda işçi qrupunun Fəaliyyət Planı çərçivəsində 2026-cı ilin 1-ci rübü ərzində görülmüş işlər müzakirə olunmuş və qarşıda qoyulan məqsədlərə nail olmaq üçün görülməli tədbirlər ətrafında fikir mübadiləsi aparılmışdır. Məruzəçilər:

1. Büdcə şəffaflığı indikatoru, Açıq Büdcə İndeksi və Ortamüddətli Xərclər Çərçivəsi barədə - Nihad Fərəcov;
2. Büdcə şəffaflığı və təbii resursların idarə edilməsi indeksləri barədə - Müşviq Bayramov;
3. Dövlət tənzimlənməsi yükü, Qlobal İnnovasiyalar İndeksi və Leqatum Rifah İndeksi barədə - Vüqar Abdullayev;
4. İnflyasiya indikatoru barədə - Elçin Güləliyev;
5. Borc dinamikası indikatoru barədə - Jalə Əhmədova;
6. İqtisadi keyfiyyət indikatoru barədə - Leyla Talıbova;
7. Leqatum Rifah İndeksinin Bazara giriş və infrastruktur indikatoru barədə - Rövşən Camalov.

## Eşidildi

İşçi qrupunun rəhbəri, Mərkəzi Bankın Pul siyasəti departamentinin direktoru **Azər Ələsgərov** iclası açaraq, gündəlikdəki məsələlər barədə məlumat verdi.

Daha sonra A.Ələsgərov Açıq Büdcə İndeksi ilə bağlı görülmüş işlər barədə məlumat vermək üçün sözü Maliyyə Nazirliyinin Ortamüddətli xərclər çərçivəsinin hazırlanması mərkəzinin Makroiqtisadi təhlil və fiskal riskləri sektorunun aparıcı məsləhətçisi **Nihad Fərəcova** verdi. N.Fərəcov bildirdi ki, Ölkəmizin Beynəlxalq Büdcə Tərəfdaşlığı tərəfindən hazırlanan növbəti "Açıq Büdcə İndeksi–2025" hesabatı üzrə qiymətləndirmə prosesinə cəlb

olunmamasına baxmayaraq, Fəaliyyət Planı çərçivəsində işlər davam etdirilmişdir. 2026-cı ilin I rübü üzrə Açıq Büdcə İndeksi metodologiyasına uyğun olaraq bir sıra məlumatlar Maliyyə Nazirliyinin internet səhifəsində yerləşdirilmişdir. Bu məlumatlara 2025-ci il üzrə Dövlət Borcuna dair Statistik Bülleten, 2025-ci il üzrə dövlət və icmal büdcələrin operativ icrasına dair təqdimat və arayış, 2026-cı ilin ilk 2 ayı üzrə icmal büdcənin operativ aylıq icra göstəriciləri, büdcənin vergi və qeyri-vergi gəlirləri üzrə göstəriciləri, funksional və iqtisadi təsnifatların paraqrafları üzrə dövlət büdcəsinin xərclərinin icrası barədə aylıq hesabatlar, dövlət borcu üzrə faiz ödənişləri, eləcə də,xalis borclanma göstəriciləri aiddir. Digər tərəfdən, ölkəmizin Açıq Büdcə Sorğusunda "ictimai iştirakçılıq" komponenti üzrə mövqeyinin yaxşılaşdırılması məqsədilə Maliyyə Nazirliyi yanında İctimai Şuranın 2026-cı il üçün Fəaliyyət Planı formalaşdırılmışdır. Bu planda İctimai Şuranın fəaliyyətinin səmərəliliyinin artırılması, ictimai iştirakçılığın genişləndirilməsi və müvafiq sahələr üzrə müzakirələrin təşkili nəzərdə tutulur. Bundan əlavə, Maliyyə Nazirliyi tərəfindən büdcə proseslərində ictimai iştirakın genişləndirilməsi, şəffaflıq və operativliyin artırılması məqsədilə "e-budget.maliyye.gov.az" (Elektron Büdcə Bələdçisi) portalı istifadəyə verilmişdir. Portal dövlət və icmal büdcələrə dair məlumatların mərkəzləşdirilmiş şəkildə toplanmasını və idarə olunmasını təmin edən rəqəmsal platformadır. O, büdcə siyasəti, gəlir və xərclər, funksional və iqtisadi təsnifatlar üzrə göstəricilər və dövlət borcu barədə məlumatları strukturlaşdırılmış formada təqdim edir. Eyni zamanda, sistemdə inteqrasiya olunmuş analitik və vizual alətlər vasitəsilə büdcə göstəricilərinin monitorinqi və müqayisəli təhlili mümkündür. Bu təşəbbüs dövlət maliyyəsinin idarə olunması sahəsində aparılan rəqəmsal və institusional islahatların tərkib hissəsi olmaqla, büdcə şəffaflığının və hesabatlılığının artırılmasına, həmçinin rəqəmsal dövlət maliyyəsi modelinin inkişafına xidmət edir.

Daha sonra Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) İcraçı direktorunun müavinin müşaviri **Müşviq Bayramov** "Büdcə şəffaflığı" indikatoru və "Təbii resursların idarə edilməsi" indeksi çərçivəsində görülən işlər barədə məlumat verdi. O qeyd etdi ki, 2026-cı ilin I rübündə ARDNF-in gəlir və xərcləri, onların strukturu və vəsaitlərin idarə olunmasından əldə edilən gəlirlərə dair məlumatlar rəsmi internet səhifəsi və sosial media platformalarında mütəmadi paylaşılmış, press-relizlərlə ictimaiyyət məlumatlandırılmışdır. Dövr ərzində tələbələr, o cümlədən, təhsil müəssisələri və universitet tələbələri üçün məlumatlandırma və infosessiyalar keçirilmişdir. Təbii resursların idarə edilməsi indeksi üzrə tədbirlər çərçivəsində hasilat sənayesində şəffaflıq üzrə hesabatlılıq davam etdirilmiş, müvafiq məlumatlar Dövlət Statistika Komitəsinə təqdim olunmuşdur. Dövlət Neft Fondunun investisiya portfelində ətraf mühit, sosial və idarəetmə (ƏSİ) prinsiplərinin tətbiqi də diqqətdə saxlanılır.

Daha sonra dövlət tənzimlənməsi yükü və tənzimləmə keyfiyyəti, Qlobal İnnovasiyalar İndeksi və Leqatum Rifah İndeksi çərçivəsində görülmüş işlər barədə məlumat vermək üçün söz İqtisadiyyat Nazirliyinin Makroiqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin müdir müavini **Vüqar Abdullayevə** verildi.

Vüqar Abdullayev bildirdi ki, 2026-cı ilin I rübündə İqtisadiyyat Nazirliyi tərəfindən dövlət xidmətlərinin daha çevik, əlçatan və istifadəçi yönümlü təşkili istiqamətində tədbirlər davam etdirilib. Bu çərçivədə innovativ həllərin tətbiqi araşdırılıb, xidmət sahələrinə inteqrasiya və mövcud prosedurların sadələşdirilməsi imkanları test edilib. Hesabat dövründə təqdim olunan xidmətlərin əsas hissəsi elektron platformalar üzərindən həyata keçirilib ki, bu da rəqəmsallaşma səviyyəsinin artdığını göstərir. Nazirliyin xidmətlərindən

economy.gov.az, lisenziya.gov.az, eləcə də quruma daxil olan və tabeliyində fəaliyyət göstərən təşkilatların rəsmi internet resursları vasitəsilə istifadə imkanları təkmilləşdirilir. O, bildirdi ki, dövr ərzində lisenziyaların elektron qaydada verilməsi davam etdirilib. Sahibkarların lisenziya əldə etmək üçün "Lisenziyalar və icazələr" portalı üzərindən İqtisadiyyat Nazirliyinə elektron qaydada müraciət etmələri təmin edilib. Bununla yanaşı, müraciətlərin ASAN xidmət mərkəzləri və KOB evləri vasitəsilə təqdim olunması imkanı da mövcuddur.

Vüqar Abdullayev, Qlobal İnnovasiya İndeksinin müvafiq indikatorları üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi istiqamətində müəyyən edilmiş regionlarda yeni sənaye parklarının yaradılması tədbiri barədə məlumat verdi. O bildirdi ki, Naxçıvan Sənaye Parkında həyata keçirilməsi nəzərdə tutulan fəaliyyətlər üzrə İqtisadiyyat Nazirliyi tərəfindən prioritet istiqamətlər təsdiq edilmişdir. Naxçıvan Sənaye Parkının fəaliyyəti üçün 310 hektar ərazidə daxili infrastrukturun yaradılması məqsədilə layihə-smeta sənədlərinin hazırlanması üçün satınalma proseduru keçirilmişdir. Hazırda satınalma komissiyası tərəfindən təkliflərin qiymətləndirilməsi prosesi icra olunur. 2026-cı ilin yanvar ayında Qərb Sənaye Parkında həyata keçirilməsi nəzərdə tutulan fəaliyyətlər üzrə prioritet istiqamətlər İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilmişdir. Qərb Sənaye Parkının xarici infrastruktur obyektləri üzrə layihə-smeta sənədlərinin hazırlanması məqsədilə aidiyyəti qurumlardan texniki şərtlərin alınması istiqamətində İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən müvafiq müraciətlər hazırlanır.

Eyni zamanda V.Abdullayev dövlət tənzimlənməsi yükü göstəricisinin yaxşılaşdırılması istiqamətində görülmüş işlərdən danışaraq bildirdi ki, İqtisadiyyat Nazirliyinin təşəbbüsü ilə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılma müddəti 2027-ci il yanvarın 1-dək artırılmışdır.

Leqatum Rifah İndeksi göstəricisinin yaxşılaşdırılması istiqamətində məlumat verərək V.Abdullayev bildirdi ki, hesabat dövründə ölkənin investisiya imkanlarının təqdim edilməsi istiqamətində sistemli işlər həyata keçirilmişdir. Bu çərçivədə ölkə təqdimatı, investisiya bələdçisi və investisiya layihələri kataloqu hazırlanmış və mütəmadi yenilənmişdir. İnvestorlar üçün vahid məlumat platforması kimi nəzərdə tutulan invest.gov.az portalı vasitəsilə investisiya imkanları təqdim edilmişdir. Türkiyə, Çin, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İsrail və İtaliya üzrə sənaye, kənd təsərrüfatı, nəqliyyat-logistika, tikinti materialları, qida sənayesi və yaşıl enerji sahələrində fəaliyyət göstərən investorlarla, ümumilikdə 40-dan çox xarici şirkət və qurumla görüşlər keçirilmiş, konkret layihələr üzrə işlər davam etdirilmişdir. Beynəlxalq tədbirlər və təşviq fəaliyyətləri vasitəsilə investorlarla birbaşa əlaqələr genişləndirilmişdir. 2026-cı ildə birbaşa xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında hüquqi bazanın dərinləşdirilməsi istiqamətində müvafiq tədbirlər davam etməkdədir. Belə ki, Azərbaycanla İtaliya, Oman, Pakistan, Səudiyyə Ərəbistanı, Vyetnam, Yaponiya, Qazaxıstan və Slovakiya arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında saziş layihəsi üzərində işlər aparılmışdır. AZPROMO tərəfindən bir sıra prioritet investisiya layihələri üzrə xarici şirkətlərin ölkəmizə səfərləri üçün məqsədli proqramlar hazırlanmış və bu çərçivədə müvafiq dövlət və özəl qurumlarla görüşlər və baxışlar təşkil edilmişdir. İnvestisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində 2026-cı ilin I rübündə prosedurların rəqəmsallaşdırılması və sadələşdirilməsi təmin edilmiş, investorlar üçün daha sürətli və praktik mexanizmlər formalaşdırılmışdır. Bu çərçivədə investor sorğularının operativ cavablandırılması məqsədilə hazır aktivlər bazası (yerli sahibkarlar

tərəfindən investisiya cəlbi üçün nəzərdə tutulan torpaq sahələri, tikililər və istehsal obyektləri) yaradılmış, həmçinin hazır paket formasında investisiya layihələri kataloqu hazırlanaraq təqdim edilmişdir. Görülmüş bu tədbirlər investorların daha effektiv istiqamətləndirilməsinə, vaxt itkisinin azaldılmasına və nəticə etibarilə investisiya mühitinin daha da yaxşılaşmasına töhfə vermişdir. Bununla yanaşı, Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 2026-cı ilin I rübü ərzində sənaye və xidmət sahələri üzrə ümumi dəyəri 9.9 milyon manat olan 5 investisiya layihəsinə 3.9 milyon manat güzəştli kredit verilmişdir. Güzəştli kreditlərin layihə sayı və kredit məbləği üzrə 26.7%-i mikro, 48.6%-i kiçik və 24.7%-i orta sahibkarlıq subyektlərinə verilmişdir. İnvestisiya layihələrinin həyata keçirilməsi üçün alternativ maliyyələşmə mexanizmləri üzrə araşdırmalar aparılmışdır.

Daha sonra inflyasiya indikatoru üzrə görülmüş işlər barədə məlumat vermək üçün söz Mərkəzi Bankın Pul siyasəti departamentinin direktor müavini **Elçin Güləliyev** verildi. E.Güləliyev bildirdi ki, 2026-cı ilin I rübündə illik inflyasiya proqnozlaşdırılan trayektoriya üzrə hərəkət etmiş və hədəf intervalı daxilində qalmışdır. 2026-cı ilin mart ayında 12 aylıq inflyasiya 5.6% təşkil etmişdir. Mərkəzi Bankın pul siyasəti monetar şərait vasitəsilə inflyasiyanın hədəf daxilində saxlanılmasına yönəldilmişdir. Baza ssenari üzrə proqnozlara görə 2026-cı və 2027-ci ildə illik inflyasiyanın hədəf daxilində olacağı gözlənilir. Hesabat dövründə pul siyasəti alətləri maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyi nəzərə alınmaqla tətbiq edilmişdir. Pul siyasəti hədəflərinə nail olmaq üçün açıq bazar əməliyyatları, daimi imkan alətlərindən adekvat istifadə olunmuşdur. Pul siyasəti alətləri avtonom amillərin monetar şəraitə təsirlərinin neytrallaşdırılmasına xidmət etmişdir. Təminatsız pul bazarında faizlər Mərkəzi Bankın faiz dəhlizi daxilində, uçot dərəcəsinə yaxın hərəkət etmişdir. AZIR indeksinin orta günlük səviyyəsi ilə uçot dərəcəsi arasındakı spred son aylarda sıfra yaxın olmuşdur.

Daha sonra Maliyyə Nazirliyinin nümayəndəsi **Jalə Əhmədovanın** “Borc dinamikası” indikatoru barədə çıxışı dinlənildi. O bildirdi ki, dövlət borcunun effektiv idarə olunması və şəffaflığın artırılması məqsədilə dövlət borcuna dair rüblük, yarımillik və illik hesabatlar, eləcə də statistik bülletenlər Maliyyə Nazirliyinin internet səhifəsində ictimaiyyətə açıqlanır. Bununla yanaşı, açıq büdcə indeksinin tələblərinə uyğun olaraq aylıq, rüblük və illik əsasda xalis dövlət borclanması, dövlət borcuna xidmət üzrə əsas və faiz ödənişlərinə dair məlumatlar da mütəmadi şəkildə yerləşdirilir. 2026-cı ilin 1 aprel tarixinə Azərbaycanın ümumi dövlət borcu 24.5 milyard manat təşkil etmişdir ki, bu da 2026-cı il üzrə proqnozlaşdırılan ÜDM-in 18,7 faizinə bərabərdir. Ümumi dövlət borcunun 32,6 faizi xarici, 67,4 faizi daxili dövlət borcunun payına düşmüşdür. İlin əvvəli ilə müqayisədə ümumi dövlət borcu 5,9 faiz, dövlət borcunun ÜDM-ə nisbəti isə 1,4 faiz bəndi azalmışdır. Hesabat tarixinə dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün strategiya sənədində müəyyən edilmiş yuxarı hədlər qorunmuşdur. Belə ki, dövlət borcunun ÜDM-ə nisbətinin 30 faizdən çox olmaması və xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi üzrə hədəflər təmin edilmişdir. Faiz dərəcəsi riskinin məqbul səviyyədə saxlanılması məqsədilə dəyişkən faizli borcun ümumi borc portfelində payının 50 faizi keçməməsi üzrə müəyyən edilmiş hədəf də gözlənilmişdir. 2026-cı ilin 1 aprel tarixinə dəyişkən faizli öhdəliklər ümumi borc portfelinin 16 faizini təşkil etmişdir. 2026-cı ilin 1 aprel tarixinə xarici dövlət borcu 4.7 milyard ABŞ dolları təşkil etmiş və proqnozlaşdırılan ÜDM-in 6,1 faizinə bərabər olmuşdur. 2026-cı ilin 1 yanvar tarixi ilə müqayisədə xarici dövlət borcu 124,2 milyon ABŞ dolları azalmışdır. 2026-cı ilin 1 aprel tarixinə strateji valyuta ehtiyatlarının həcmi 85,2 milyard ABŞ

dolları olmuş və xarici dövlət borcunu təxminən 18,2 dəfə üstələmişdir. Müqayisə üçün qeyd edək ki, ilin əvvəlində bu göstərici 17,7 dəfə təşkil etmişdir. 2026-cı ilin 1 aprel tarixinə daxili dövlət borcu 16.5 milyard manat və ya proqnozlaşdırılan ÜDM-in 12,6 faizini təşkil etmişdir. 2026-cı ilin 1 yanvar tarixi ilə müqayisədə daxili dövlət borcu 1.3 milyard manat azalmışdır. Azalmanın əsas səbəbi daxili maliyyə bazarında yerləşdirilmiş qısamüddətli dövlət istiqrazlarının ilin ilk rübü ərzində müddətinin başa çataraq geri qaytarılması olmuşdur.

Daha sonra söz Mərkəzi Bankın nümayəndəsi **Leyla Talıbovaya** verildi. L.Talıbova iqtisadi keyfiyyət indikatoru üzrə görülmüş işlər barədə bildirdi ki, ilkin olaraq əvvəlki dövr üzrə həyata keçirilmiş tədbirlərin nəticələri təhlil edilmişdir. Əldə olunmuş göstəricilər, mövcud çağırışlar və təkmilləşdirilməsi zəruri olan sahələr müəyyənləşdirilmişdir. Aparılmış təhlillər əsasında cari il üzrə əsas məqsəd və hədəflər təsdiq edilmişdir. Planlaşdırma mərhələsində maliyyə savadlılığının artırılması istiqamətində müxtəlif mövzular nəzərdən keçirilmiş, bu mövzular arasında Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestrinin fəaliyyəti və onun biznes subyektləri üçün yaratdığı imkanlara xüsusi önəm verilmişdir. Daha sonra assosiasiyalar tərəfindən təqdim olunacaq məlumatların vahid formatda toplanması və emalının təmin edilməsi məqsədilə fəaliyyət planı şablonları yenilənmiş və bütün tərəfdaş qurumlara təqdim edilmişdir. Eyni zamanda maliyyə sektorunu təmsil edən assosiasiyaların hər biri ilə ayrı-ayrılıqda işgüzar görüşlər keçirilmişdir. Bu görüşlər zamanı cari il üçün müəyyənləşdirilmiş vəzifələr, tədbirlərin icra mexanizmləri, habelə planlaşdırma prosesində nəzərə alınmalı əsas məqamlar ətraflı izah olunmuşdur. Assosiasiyalara öz fəaliyyət istiqamətləri üzrə tədbirlərin təqdim olunmuş yeni şablonlara uyğun şəkildə formalaşdırması tapşırılmışdır. Bununla yanaşı, fəaliyyət planlarında sahibkarların maliyyə savadlılığının artırılmasına yönəlmiş digər maarifləndirici tədbirlərlə bərabər, Mərkəzi Bankın Virtual Təhsil Platformasında yeni yayımlanmış "Biznesin maliyyələşdirmə alətləri" mövzusunda kursun təşviqinin həyata keçirilməsi planlaşdırılır. Sözügedən kursun assosiasiyalar və onların üzv təşkilatları tərəfindən öz üslublarına uyğun şəkildə məlumatlandırıcı postlar, qısa animasiyalar, broşürlər və digər formatlar vasitəsilə mövcud kommunikasiya kanallarında sahibkar auditoriyası arasında təbliği və təşviqi nəzərdə tutulmuşdur. Nəticə etibarilə, assosiasiyalar tərəfindən hazırlanmış və təqdim edilmiş illik fəaliyyət planlarında nəzərdə tutulan tədbirlər ümumiləşdirilmiş, müvafiq tövsiyələr verilərək sektorlar üzrə hər bir assosiasiyanın ayrıca illik fəaliyyət planları çərçivəsində nəzərə alınmışdır. Qeyd edilməlidir ki, planlar çərçivəsində bəzi tədbirlərin icrasına artıq başlanılmışdır. Məsələn, Global Money Week ilə bağlı fəaliyyətlər çərçivəsində bir sıra ilkin təşəbbüslərin həyata keçirilməsinə start verilmişdir. Eyni zamanda, qeyd olunan istiqamətlər üzrə icra edilmiş fəaliyyətlərə dair məlumatların mövcud monitorinq və hesabatlılıq mexanizmlərinə uyğun olaraq II rüb üzrə təqdim edilməsi planlaşdırılır.

Daha sonra **Vüqar Abdullayev** monetar azadlıq indeksi göstəricisi ilə bağlı bildirdi ki, Tarif (qiymət) Şurası tərəfindən tarifləri tənzimlənən xüsusi rabitə xidmətlərinin tariflərinin İqtisadiyyat və Maliyyə nazirliklərinin rəyi nəzərə alınmaqla, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən təsdiq edilməsi ilə bağlı hazırlanmış Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi İqtisadiyyat, Maliyyə və Ədliyyə nazirlikləri, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən vizalanmış, normayaratma fəaliyyətindən irəli gələn işlərin davamı olaraq vizalanmış layihələr 05.02.2026-cı il tarixdə Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Sonra söz çıxış üçün Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, Təbii inhisarlara dövlət nəzarəti şöbəsinin Təbii inhisar və dövlət inhisarının tənzimlənməsinin təşkili sektorunun müdiri **Rövşən Camalova** verildi. O bildirdi ki, daxil olmuş vətəndaş müraciətləri əsasında "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti (ASC) barəsində istehlakçıların elektrik enerjisi borcları hesablandığı andan etibarən qanunvericilikdə nəzərdə tutulmuş 1 ay müddət gözlənilmədən elektrik enerjisinin verilişinin dayandırılması ilə əlaqədar, habelə qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı həmin obyektlərin elektrik şəbəkələrinin mühafizə zonasında yerləşməsi səbəbindən "Azərişıq" ASC tərəfindən mənfi rəylərin verilməsi ilə bağlı müvafiq olaraq iki araşdırma yekunlaşmış, rəqabət qanunvericiliyinin pozulması halları və əlamətləri müəyyən edildiyi üçün təbii inhisar subyekti barəsində iş qaldırılmışdır. Daha sonra Agentlik öz təşəbbüsü ilə 4 təbii inhisar subyekti ("Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" PHŞ, "Azərenerji" ASC, "Regional Su Meliorasiya Xidməti" PHŞ, "ULTEL" MMC) barəsində sahibkarlıq fəaliyyətinin nəticələrinə dair maliyyə hesabatlarını müəyyən edilmiş qaydada və vaxtda rəqabət orqanına təqdim edilməməsi ilə bağlı "Azərenerji" ASC, "ULTEL" MMC və "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" PHŞ tərəfindən araşdırma yekunlaşdırılana kimi, rəqabət qanunvericiliyinin pozulması halı könüllü aradan qaldırıldığı üçün araşdırmaya xitam verilməsi barədə qərar qəbul edilmişdir. 2026-cı ilin I rübündə Agentlik tərəfindən təbii inhisar subyektləri tərəfindən həyata keçiriləcək razılıq hərəkətləri ilə əlaqədar daxil olmuş müraciətlər üzrə 3 müraciətə razılıq, 1 müraciətə şərtli razılıq və 1 müraciətə imtina verilməsi ilə bağlı qərarlar qəbul olunmuşdur. Agentlik tərəfindən 15 təbii inhisar subyektlərinə (Azərbaycan Hava Yolları, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Azərenerji, Azəriqaz, Azərişıq, Azəristiliktəchizat, Azərpoçt, Azneft, Aztelekom, Bakı Metropoliteni, Azərbaycan Dəmir Yolları, İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti, Regional Su Meliorasiya Xidməti, Neft Kəmərləri, Qaz İxrac) istehsal etdikləri (satışını həyata keçirdikləri) qiymətləri tənzimlənməyən məhsulların (iş, mal və xidmətlərin) tam siyahısının, eləcə də həmin məhsullar üzrə qiymətlərin formalaşmasına təsir edən amillər (maya dəyəri, orta xərclər, dövlət dotasiyaları və s.) barədə məlumatların təqdim edilməsi məqsədilə müvafiq sorğular göndərilmişdir. Bir sıra subyektlər tərəfindən müvafiq məlumatların təqdim edilməsinə başlanılmışdır. 31.03.2026-cı il tarixində Agentlikdə tibbi xidmətlər sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri üçün "Rəqabət Məcəlləsi: Tənzimləmə metodları və müasir yanaşmalar" mövzusunda maarifləndirici seminar keçirilmişdir.

28.11.2025-ci il tarixində bitki mənşəli duru yağ məhsullarının topdansatışı bazarında araşdırma aparılması barədə müvafiq Qərar qəbul edilmişdir. Aparılan araşdırma ilə bağlı 17-18 dekabr 2025-ci il tarixində təsərrüfat subyektləri ilə ayrı-ayrılıqda keçirilmiş, qanunvericiliyin tələbləri izah olunmuş və bir sıra məlumatların Agentliyə təqdim edilməsi xahiş edilmişdir. Bununla yanaşı "Trendyol Azərbaycan" MMC-nin Agentliyə daxil olmuş müraciəti və təqdim edilmiş məlumatlar ilə əlaqədar "PDD Holdings" şirkəti barəsində müvafiq araşdırma barədə Qərar qəbul edilmişdir. "Trendyol Azərbaycan" MMC-yə məlumat verilmiş və müraciətdə qeyd edilən məsələlərlə bağlı rəqabət qanunvericiliyinin pozulması faktını təsdiq edən əlavə sənəd və məlumatlar olduğu təqdirdə, həmin sənəd və məlumatların mümkün qısa müddət ərzində Agentliyə təqdim edilməsi xahiş edilmişdir. Müvafiq araşdırma ilə əlaqədar "Temu" elektron ticarət platformasına sorğu məktubu göndərilmişdir. Fiziki şəxslərin iqtisadi fəaliyyətində yaranmış problem barədə daxil olmuş

müraciətləri və təqdim edilmiş məlumatlar ilə əlaqədar "Binə Çörək Zavodu" MMC, "İsrafiloğlu" MMC və "Sərham" MMC barəsində "Rəqabət qanunvericiliyinin pozulması hallarının araşdırılmasına başlanılması haqqında" Qərar qəbul edilmiş və Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin tələblərinə uyğun olaraq araşdırılmaya başlanılmışdır. Məsələ ilə əlaqədar toplanmış məlumatlar əsasında aparılmış araşdırmanın nəticələrinə dair Arayış hazırlanmış və Akt tərtib olunmuşdur. Rəqabət qanunvericiliyinin pozulması halları müəyyən edilmədiyindən araşdırılmaya xitam verilməsi haqqında Qərar qəbul edilmişdir.

İclas zamanı "İqtisadi Təşəbbüslərə Yardım" İctimai Birliyinin İdarə Heyətinin üzvü və departament rəhbəri **Samir Əliyevin** "Büdcə şəffaflığı indikatoru, Açıq Büdcə İndeksi" və Qlobal İnnovasiyalar İndeksi üzrə sualları işçi qrupu üzvlərinə ünvanlandı. Suallar dövlət büdcəsi barədə daha detallı məlumatların ictimaiyyətə təqdim edilməsi, dövlət tərəfindən tənzimlənən qiymətlərin sayının azaldılması, inhisarçılığa qarşı mübarizə kimi məsələlərə aid idi. Samir Əliyev "Açıq Büdcə İndeks"ində Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması üçün hər il parlamentə təqdim edilən Büdcə zərfindəki məlumatların ictimaiyyətə açıqlanmasının və büdcə müzakirələrinə vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakının təmin edilməsinin vacibliyini qeyd edərək bu məqsəd ilə İşçi Qrupunun tərkibinə Milli Məclisin nümayəndələrinin də dəvət edilməsini təklif etdi. Suallar və irəli sürülən təkliflər barədə fikir mübadiləsi aparıldı.

**Qərara alındı:**

1. İclasda qeyd olunan məsələlər nəzərə alınsın və "Effektiv idarəetmə və makroiqtisadi göstəricilər" işçi qrupunun Fəaliyyət Planına uyğun olaraq tədbirlərin icrası cari ilin sonuna qədər davam etdirilsin.

İşçi qrupun rəhbəri: ____________ Azər Ələsgərov

Katib: ____________ Məcidxan Vəliməmmədov